**Yeni şeyləri müəyyən edirik.** Seçdiyiniz və yenidən ifadə etdiyiniz faktlar arasından oxucular üçün yeni məlumat olanları müəyyən edin. Onları xəbər məlumatları şəklində ifadə edin. Fellərə diqqət yetirin. Xəbərin tərkibində mütləq fel olmalıdır. Çalışın ki, fel məchul və şəxssiz növdə olmasın.

**[I]** Nərimanabad rayonunun icra başçısı rayonun bələdiyyə sədri və Ağsaqqallar şurasının sədri ilə *görüşüb.*

**[II]** İcra başçısı nəyə görəsə bələdiyyə sədrinə və Ağsaqqallar şurasının sədrinə *təşəkkür edib.*

**[III]** İcra başçısı bələdiyyə sədri və Ağsaqqallar şurasının sədri ilə nəyisə *müzakirə edib.*

**[IV]** İcra başçısı, bələdiyyə sədri və Ağsaqqallar şurasının sədri «Cəsurlar» klubunda uşaqlar və onların valideynləri ilə *görüşüb.*

**[V]** Ağsaqqallar şurasının sədri «Gənc kosmonavtlar» dərnəyinin bərpasını *təklif edib.*

**[VI]** İcra başçısı Nərimanabad rayonunda gənclərin milli-vətənpərvərlik ruhunda tərbiyə olunmasına diqqət yetirildiyini *deyib.*

**[VII]** İcra başçısı «Gənc kosmonavtlar» dərnəyinin bərpasının mümkün olub olmadığını öyrənmək üçün işçi qrupunun yarıdılmasına *göstəriş verib.*

**[VIII]** Uşaqların valideynləri icra başçısına *suallar verib.*

**[IX]** Bir valideyn (kim olduğunu bilmirik) məişət tullantıları zavodunun Nərimanabadda tikilib tikilməyəcəyi haqda *sual verib.*

**[X]** İcra başçısı məişət tullantıları zavodunun tikiləcəyi yer barəsində hökumətin qərar verdiyini *bildirib.*

**[XI]** Hökumət məişət tullantıları zavodunun Məmmədli kəndində tikilməsi barədə *qərar verib.*